# "Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli 11 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

## Qərar *№ 324*

*Bakı şəhəri, 8 noyabr 2013-cü il*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli 11 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 55, № 4, maddə 378, № 10, maddə 980; 2006, № 2, maddə 180, № 4, maddə 367, № 7, maddə 652; 2007, № 6, maddə 700, № 7, maddə 743, №12, maddə 1355; 2008, № 4, maddə 325, № 7, maddələr 672, 687, № 11, maddə 1036; 2009, № 1, maddə 25, № 4, maddə 291, № 9, maddələr 742, 744, № 12, maddə 1071; 2010, № 4, maddə 356, № 7, maddə 706, № 12, maddələr 1113, 1114; 2011, № 1, maddə 68, № 4, maddə 374, № 8, maddə 775; 2012, № 1, maddə 38, № 7, maddə 780, № 9, maddə 936, № 10, maddə 1019 ) 1.8-ci və 1.15-ci bəndləri ləğv edilsin.

2. Bu qərar dərc edildiyi gündən 30 gün sonra qüvvəyə minir.

**Artur RASİ-ZADƏ,**

**Azərbaycan Respublikasının Baş naziri**